**Ağdaş rayonunda yerləşən meyvə bağlarında aparılan fitosanitar monitorinqlər**

Milli Monitorinq Planı çərçivəsində Agentliyin Bərdə regional bölməsinin əməkdaşları tərəfindən Ağdaş rayonunda yerləşən tumlu və çəyirdəkli meyvə bağlarında aparılan fitosanitar müşahidələr zamanı karantin tətbiq edilən zərərli orqanizmlərdən müxtəlif çanaqlı yastıca növlərinə rast gəlinib. Simptomlu bitki hissələrindən nümunələr götürülərək Azərbaycan Qida Təhlükəsizliyi İnstitunun müvafiq laboratosiyasında müayinələrə cəlb olunub. Bununla yanaşı, meyvə bağlarında şaftalı meyvəyeyəninin (Carposina niponensis), Aralıq dənizi meyvə milçəyinin (Ceratitis capitata) və qərb çiçək tripsinin (Frankliniella occidentalis) mövcudluğunu müəyyənləşdirmək üçün feromon tələlər asılıb. Müvafiq müddətdən sonra feromon tələlərə təkrar baxış keçirilən zaman bağda və ona yaxın ərazilərdə qeyd olunan zərərvericilərin mövcud olmadığı müəyyən edilib.